# *"Cumhuriyet" qəzeti:*

# COP29 insan sağlamlığı və planetin gələcəyi baxımından ilin əsas hadisəsidir

**Türkiyənin aparıcı media orqanlarından biri olan "Cumhuriyet" qəzeti BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) gündəliyi və əhəmiyyəti barədə oxuculara məlumat verib.**

AZƏRTAC xəbər verir ki, nəşrdə "yaşıl texnologiya"lar və iqlim dəyişikliyi ilə mübarizədə ayrı-ayrı dövlətlərin addımlarının müsbət qiymətləndirilməsinin zəruriliyi vurğulanır.

Qəzet öz oxucularına bu yay dünyada demək olar ki, hər gün qeydə alınan anomal istiləri xatırladıb. Nəşr qeyd edir: "İqlim dəyişikliyi insanların içməli suya çıxışını çətinləşdirir, quraqlıqlar artır və havanın keyfiyyəti pisləşir".

Materialda qeyd olunur: "İnkişaf etməkdə olan ölkələrə verilən iqlimin maliyyələşdirilməsi vədlərinin tam yerinə yetirilməməsi baxımından 2024-cü il iqlim dəyişikliyi gündəliyi üçün heç də yaxşı il deyil. Eyni zamanda "yaşıl texnologiya"ların və ayrı-ayrı ölkələrin səylərinin iqlim gündəliyinə müsbət töhfəsini qeyd etmək lazımdır. Bu kontekstdə COP29-u istənilən ekoloji kursa doğru yönəlmək üçün ilin son fürsəti adlandırmaq heç də yanlış olmazdı".

Qəzet oxuculara Bakıda keçirilən qlobal sammitin gündəliyində duran əsas məsələlər, o cümlədən Milli Səviyyədə Təyin Edilən Töhfələrin (NDC) müzakirəsi barədə məlumat verib və diqqəti COP29-da Türkiyə pavilyonuna çəkib.

Nəşr vurğulayır ki, COP29 haqlı olaraq insan sağlamlığı və planetin gələcəyi baxımından ilin əsas ekoloji hadisəsidir.

Azərbaycan.- 2024.- 3 noyabr (№ 243).- S.3.